**“Kaspi”.-**2014.-8 may.-№ 78.-S.22.

## Əməl dostları: İ. Qasprinski və Ə. Topçubaşov

1914-cü ildə Əlimərdan bəy Topçubaşov fəal jurnalistikadan uzaqlaşmışdı. İmzası qəzet və məcmuə səhifələrində nadir hallarda görünürdü. Bu da iki səbəblə bağlı idi. Əvvəla, milli mətbuata yeni, bacarıqlı və cəsarətli qüvvələr gəlmişdi.

Digər tərəfdən, məşhur “Vıborq bəyannaməsini” imzaladığına görə “Kaspi”nin redaktorluğundan istefa vermək məcburiyyətində qalandan sonra Əlimərdan bəy əsas vaxt və enerjisini Dövlət Duması Müsəlman fraksiyası Bürosunun rəhbəri kimi siyasi fəaliyyətə və qanun yaradıcılığına yönəltmişdi.

Lakin 1914-cü il sentyabrın 11-də Krımdan aldığı kədərli xəbər onu “Kaspi” səhifələrində siyasi publisistikasının son, eyni zamanda təsirli və yaddaqalan nümunələrindən birini qələmə almağa vadar etmişdi. Həmin gün türk dünyasının tanınmış şəxsiyyəti, “Tərcüman” qəzetinin naşiri və redaktoru, “dildə, fikirdə, əməldə birlik” şüarının müəllifi İsmayıl Qasprinski Bağçasarayda vəfat etmişdi.

Yaxınları və doğmaları, istedadının pərəstişkarları mərhumun üç mərasiminə toplaşdıqları gün “Kaspi” Ə. Topçubaşovun “İsmayıl bəy Qasprinskinin xatirəsinə” (13 sentyabr 1914-cü il, № 203) adlı məqaləsini dərc etmişdi.

“Qasprinski öldü”, – deyə o, heç bir müqəddiməsiz – filansız özü üçün də son dərəcə ağır, sarsıdıcı xəbəri həmvətənlərinə çatdırırdı:

“Son yarım əsr ərzində adı yalnız Rusiyadakı müsəlmanlar arasında deyil, xaricdə də çox yaxşı tanınan bu şəxs daha sıralarımızda deyil. Yarım əsr ərzində sakit, lakin inamlı bir tərzdə müsəlmanlara bilik, tərəqqi və ictimai şüur yolunu göstərən insanı həmişəlik itirdik.

Amansız tale öz qəddar əli ilə işıq saçan şamı söndürdü. Bununla da müsəlmanları dərin ələm və qüssəyə qərq etdi. Müsəlmanlar arasında doğma xalqın mənafeyinə səmimi-qəlbdən bağlı olan ictimai xadimlərə çox az rast gəlindiyindən ələm və qüssəmizin miqyası da böyükdür. Çünki indi unudulmaz İsmayıl bəy Qasprinskini əvəz etməyə başqa adamımız yoxdur”.

Türklərin yaşadıqları digər məmləkətlərdə olduğu kimi, Azərbaycanda da Qasprinskinin dostları və həmfikirləri çox idi. Böyük Krım-tatar maarifçisinin seçilmiş əsərlərinin 3 cildliyini çapa hazırlayan türkiyəli professor Əli Yavuz Akpinar onun ölkəmizlə bağlılığı məsələsinə aydınlıq gətirərək yazır: “Azərbaycanlı ziyalılarla və Hacı Zeynalabdin Tağıyevlə yaxın və sıx ilişkiləri hər zaman olmuşdu. Başda Həsən bəy Məlikzadə-Zərdabi və Əlimərdan bəy Topçubaşlı olmaq üzərə Ünsizadə qardaşları, Hüseynzadə Əli bəy, Əhməd Ağaoğlu, Sultan Məcid Qənizadə və nəhayət qızı Şəfiqə xanımla evlənən Nəsib bəy Yusifbəyli ilə (mətndə səhvən Nəsib bəy Nəsibzadə getmişdir – V.Q.) çeşidli zamanlarda ortaq fəaliyyətlərdə bulunmuş, onlar haqqında “Tərcüman”da bir çox yazı da yazmışdır”.

Qohumluq əlaqələrini bir tərəfə buraxsaq İsmayıl bəyin Azərbaycanda ən sıx münasibət saxladığı, mütəmadi məktublaşdığı, fikir və mülahizələrinə böyük sayğı ilə yanaşdığı, bəzən yol göstərdiyi, bəzi məsələlərlə bağlı isə məsləhət aldığı şəxs Ə. Topçubaşov olmuşdu. Aralarındakı dostluq münasibətləri təxminən dörddə bir əsr ərzində, böyük maarifçinin vəfatına qədər davam etmişdi.

Tanışlıqlarının tarixi XIX əsrin 90-cı illərinə təsadüf edirdi. Bunu sübuta yetirən yazılı sənəd “Tərcüman”ın ilk yubileyinin – 10 illiyinin qeyd olunduğu 1893-cü ilin aprelində Tiflisə, Ə. Topçubaşova ünvanlanan məktub idi. Həmin məktubda İsmayıl bəy qəzetin məqsədini, məramını açıqlayaraq naşir və redaktor kimi əsas niyyətinin “Rusiya müsəlmanlarının ana dillərində düzgün təlim-tərbiyə görmələri, xalq üçün anlaşıqlı ədəbiyyatın inkişafı, müsəlmanlar arasında rus dilinin, elm və mədəniyyətin mümkün dərəcədə yayılması, müsəlman əhalinin mənəvi və maddi tərəqqi zəminində ruslarla sıx birləşmələri” olduğunu qeyd edirdi. Bu məqsədlərin həyata keçirilməsi baxımından onun yardımına ehtiyac duyduğu, arxalandığı ictimai xadimlərdən biri o zaman hələ otuz yaşı tamam olmayan Əlimərdan bəy Topçubaşov idi. Zaman və sonrakı illərdə Rusiya imperiyasındakı türk xalqlarının mənafeyinin qorunmasına yönəlmiş birgə fəaliyyət türk birliyi ideyası müəllifinin öz seçimində qətiyyən yanılmadığını göstərdi.

1893-cü ildən sonra onlar Qazanda, Peterburqda, Moskvada, Tiflisdə, Bakıda, Nijni-Novqorodda dəfələrlə görüşmüşdülər. Görüşə bilmədikləri vaxtlarda isə qarşılıqlı ünsiyyəti məktublar vasitəsi ilə davam etdirmişdilər. İ. Qasprinski ailəsində, “Tərcüman” redaksiyasında, nəhayət, Krım tatarları arasında Əlimərdan bəyin hörməti o qədər böyük idi ki, krım-tatar tarixçisi İ. Kərimovun yazdığına görə, 1908-ci ilin mayında Bağçasarayda qəzetin 25 illik yubileyi təntənə ilə qeyd olunanda məsciddəki camaat namazı zamanı imam hamını “bakılı publisistlər Əlimərdan bəy Topçubaşov və Əhməd bəy Ağayevin sağlamlıqları və işlərinin rast gətirməsi üçün” dua etməyə çağırmış, xütbəsini “Eşq olsun bu insanlara !” sözləri ilə tamamlamışdı.

Eyni zamanda təəssüf etməli oluruq ki, iki əqidə dostunun, iki böyük şəxsiyyətin ümumi mənafe uğrunda əməkdaşlığını və yüksək səviyyəli şəxsi münasibətlərini işıqlandıran sənədlərin yalnız bir neçə nümunəsi günümüzə qədər gəlib çatmışdır. 1918-ci ilin mart qırğınında Ə. Topçubaşovun şəxsi arxivinin böyük bir hissəsi (özünün yazdığına görə, bir neçə sandıq əlyazması və sənədlər) məhv olmuşdu. Eləcə də, 1918-1920-ci illərdə Krımın dəfələrlə əldən ələ keçməsi, bolşevik rejiminin repressiyaları, nəhayət, Krım tatarlarının öz tarixi vətənlərindən zorakı sürgünü nəticəsində Qasprinski arxivi də demək olar ki, tamamilə it-bata düşmüşdü.

Hazırda onların çoxillik yazışmasından yalnız İsmayıl bəyin Ə. Topçubaşova göndərdiyi 6 məktub qalmışdır. Bu məktubların mətnləri tatar tarixçisi, Azərbaycan siyasi mühacirətinə dair bir sıra araşdırmaların və sənədlər məcmuəsinin müəllifi S. İshakov tərəfindən 2012-ci ildə Moskvada "Ə.M. Topçubaşi. Şəxsi arxivlərdən sənədlər. 1903-1934-cü illər" kitabında (rus dilində) çap olunmuşdur. Öz növbəsində həmin məktubları tərtibçiyə mühacir irsinin toplanmasında və Vətənə gətirilməsində müstəsna xidmətləri olan görkəmli diplomat Ramiz Abutalıbov təqdim etmişdir.

Nizami adına Ədəbiyyat İnstitutunda Azərbaycan mühacirətinin ədəbi irsinə dair ilk beynəlxalq konqresi keçirdiyimiz 1992-ci ildə Ramiz müəllim həmin məktubların foto-surətlərini mənə də vermişdi. Xarici İşlər Nazirliyində birgə çalışdığımız dövrdə isə belə "hədiyyələrin" sayı daha da artmışdı... Təbii ki, bütün bunları minnətdarlıq hissi keçirmədən xatırlamamaq olmur.

İsmayıl bəy Qasprinskinin azərbaycanlı əqidə dostuna göndərdiyi məktublar öz səmimiliyi, inam və etimad ruhu ilə seçilir, onların arasında ən müxtəlif məsələlərlə bağlı tam qarşılıqlı anlaşmanın mövcudluğunu göstərir. Ə. Topçubaşovdan 12 yaş böyük olan İ. Qasprinski dövrün epistolyar mədəniyyəti üçün səciyyəvi müraciət formalarını ("mərhəmətli cənab", "cənab" və s.) bir tərəfə qoyaraq məktublarında ona sadəcə "Əzizim Mərdan" deyə üz tutur, məktublarını "Sənin İsmayılın" sözləri ilə tamamlayır və bu yolla da münasibətlərinin yaxınlığını, doğmalığını bir daha nəzərə çarpdırmış olurdu. "Yaxşı bilirsən ki, nə tənqidlərin, nə də təriflərin mənə təsir etməz, çünki mənə çox yaxınsan" – deyə 24 sentyabr 1906-cı il tarixli məktubda qarşılıqlı münasibətlərin xüsusi xarakterini bir daha vurğulayan İ. Qasprinski məhz gənc dostunun qəlbini qırmamaq üçün bəzən hətta hadisələrə və insanlara münasibətdə prinsiplərini qurban verməkdən də çəkinməmişdi. Əlimərdan bəy də öz növbəsində şəxsi həyatından tutmuş ictimai-siyasi fəaliyyətinə qədər ən müxtəlif məsələləri özünün yaşca daha böyük və təcrübəli həmkarı ilə müzakirə edir, ciddi qərarların qəbulunda ondan məsləhət istəyirdi.

Onların maraqlarının fokusunda dayanan problemlər kifayət qədər geniş idi. Bura mətbuat, maarif, kitab nəşri, qadın təhsili, müsəlman dini müəssisələri, türk toplumunun mədəni, mənəvi, siyasi tələbləri, vəqf torpaqlarının məscidlərin istifadəsində qalması və s. daxil idi. "Şərqi-rus" redaksiyasının Bakıya köçürülməsi və bu yolla da azərbaycanlıların baş şəhərində ana dilində mətbuat orqanı yaradılması təklifi gündəliyə çıxanda Əlimərdan bəy məsləhət üçün ilk növbədə "Tərcüman" redaktoruna müraciət etmişdi. İ. Qasprinski 1904-cü ilin dekabrında məsələ ilə bağlı ona yazırdı: "Şərqi-rus"a gəldikdə, özün bilən kimi hərəkət elə. Əlbəttə, "mülkiyyət" kimi (burada Əlimərdan bəyin qəzetin imtiyaz sahibi olması nəzərdə tutulurdu – V.Q.) sənə ağır yük olacağını düşünmürəm. Əslində çox tələsməyə ehtiyac yoxdur. Çünki bilmək olmaz, bəlkə də mətbuat azadlığı dövrünə qədər yaşadıq; onda "Şərqi-rus" mərhələsi üzərindən keçərək həqiqi qəzet buraxmağa başlarıq". Məsələ ilə bağlı qərar qəbul edilməsində, yəni M. Şahtaxtinski ilə əməkdaşlıqdan imtinada İ. Qasprinskinin fikrinin nə dərəcədə mühüm rol oynadığını deyə bilmərik. Amma burada iki cəhət diqqəti cəlb edir: əvvəla "Şərqi-rus"un ümummilli mətbu orqana çevrilə bilməməsi məktub müəllifinə bəlli idi, eyni zamanda o, bir tərəfdən Ə. Topçubaşov və Ə. Ağayev, o biri tərəfdən isə "Şərqi-rus"un sahibi M. Şahtaxtinski arasındakı fikir ayrılıqlarından, qarşıdurmadan xəbərdar idi...

1906-cı ildə Ə. Topçubaşov Bakı şəhəri və quberniyasından Birinci Dövlət Dumasına deputat seçiləndə buna ən çox sevinənlərdən biri, heç şübhəsiz, İsmayıl bəy olmuşdu. Həmin vaxta qədər Rusiya türklərinin I və II qurultaylarına birgə rəhbərlik etmişdilər və İsmayıl bəy dostunun siyasi iradəsi, polemika mədəniyyəti, milli məsələlərdə dönməzliyi barəsində təsəvvür əldə etmişdi. Odur ki, Topçubaşovun Rusiya türkləri üçün mühüm məsələləri çəkinmədən Duma gündəliyinə çıxaracağına inanırdı. Tezliklə ali qanunverici orqanda Müsəlman fraksiyasının yarandığını və Əlimərdan bəyin bu quruma rəhbərliyi öz üzərinə götürdüyünü eşidən İ. Qasprinski Bağçasaraydan göndərdiyi 1906-cı il 28 iyun tarixli məktubda ona həm ciddi, həm də yarızarafat bəzi məsləhətlərini verərək yazırdı:

"Əzizim Mərdan, sən çox qaynar mühitdə yaşamısan və yaşayırsan. Bunu bir dəqiqəliyə də olsa unutma və özün öz başına gündə bir neçə dəfə soyuq su tök. Səni əhatə edənlərin, oxuduqlarının və eşitdiklərinin hamısının soyuq ağılla, ciddi tənqidi şəkildə nəzərdən keçirilməsi ilk növbədə özün üçün çox zəruridir. Yadından çıxarma ki, taxt-tac sahibləri də daxil olmaqla bütün müsəlman dünyasının gözü səndədir. Unutma ki, rus tarixi də sənin adını öz səhifələrində qoruyub saxlamalıdır. Sən ciddi dövlət

adamı və ictimai xadim ola bilərsən və olmalısan. Bizim fraksiyanın işini elə qurmalısan ki, "müsəlman qrupu", yaxud "milli qrup" kimi həm sağdan, həm də soldan ona hörmətlə yanaşsınlar".

Əslində, İ. Qasprinskinin bu məktubdakı peyğəmbərliklərinin, daha dəqiq desək inamının tam doğrulduğunu söyləmək mümkündür. Çünki Ə. Topçubaşov həqiqətən də ciddi dövlət adamı və böyük ictimai xadim kimi fəaliyyətini yalnız siyasi publisistika və Dövlət Duması kürsüsü ilə məhdudlaşdırmadı, siyasi mübarizəsində daha irəli gedərək öz xalqının milli dövlətinin – Azərbaycan Cümhuriyyətinin qurucularından biri kimi tarixdə yer tutdu.

Mətbuat səhifələrində siyasi maarifçiliklə başlayan bu mübarizə Birinci rus inqilabı dövründə açıq müstəviyə keçdi. Eyni zamanda Azərbaycanın öndə gedən fikir adamları milli oyanış və ictimai fəallıq baxımından Krım və Volqaboyu tatarları ilə ittifaqa girərək güclü blok yaratmağa nail oldular. Tezliklə siyasi partiyaya çevrilən bu bloku tatarlar tərəfdən İsmayıl Qasprinski, Azərbaycan türkləri tərəfdən isə Ə. Topçubaşov təmsil etdiklərindən onların 1905-ci ildən sonrakı yazışmalarında türk birliyi ideyası, imperiyanın türk-müsəlman xalqlarının siyasi təşkilatlandırılması qayəsi aparıcı yer tuturdu. Artıq özünü kifayət qədər ahıl sayan "Tərcüman" redaktoru bu mübarizənin lideri kimi Əlimərdan bəyi görürdü, məktublarında və mətbuatda həmin fikri açıq şəkildə müdafiə edirdi. Türk hərəkatına təfriqə salmaq, yaxud vahid lider kimi Ə. Topçubaşovun mövqeyini zəiflətmək istəyənlər qarşılarında ilk növbədə İ. Qasprinskini görürdülər. Bu baxımdan məktublarda tatar publisisti və ictimai xadim Qabdraşit İbrahimov haqqında yazılanlar səciyyəvidir.

Əlimərdan bəy çox güman ki, Qasprinski vasitəsi ilə Krım tatarlarının başqa görkəmli nümayəndəsi, türk birliyi ideyasının ardıcıl tərəfdarlarından biri kimi tanınan Mustafa Davidoviçlə (1851-1914) tanış olub yaxınlaşmışdı. Mustafa Davidoviç əslən Litva tatarı və beş yüz illik tarixi olan əsilzadə – murza nəslinin təmsilçisi idi. İlk gənclik illərində İ. Qasprinski ilə birlikdə Moskva hərbi gimnaziyasında təhsil almışdı. Onun təsiri altında Krıma gəlmiş və həyatının sonuna qədər bir vaxtlar əcdadlarının köç edib getdikləri əski vətənə xidmət etmişdi. 1895-1902-ci illərdə Bağçasarayın, 1907-1914-cü illərdə isə Aluştanın şəhər başçısı olmuşdu. XX əsrin əvvəllərində xüsusi ilə geniş vüsət alan türk-müsəlman hərəkatının fəal iştirakçılarından idi.

Çar I Nikolayın əmri ilə Birinci Dövlət Dumasının buraxıldığı, Ə. Topçubaşov da daxil olmaqla narazı deputatların xalqı etiraza çağıran "Vıborq bəyannaməsini" imzaladıqları 1906-cı ilin iyul günlərində Mustafa Davidoviç hadisələrin gələcək inkişafı ilə bağlı narahatlıqlarını azərbaycanlı məsləkdaşı ilə bölüşərək yazırdı: "Çox ağır təəssürat altındayıq və "sonra nə olacaq?" sualına cavab tapa bilmirik. Aralarında əhval-ruhiyyə coşqunluğu sezilən, öz insan ləyaqətlərini dərk edən, ictimai fəaliyyətə can atan və vətənpərvərlik hissləri ilə yaşayan tatarlar (Krım tatarlarını nəzərdə tuturam) bu şəraitdə yenidən fəaliyyətsizliyə qayıdır, ruh düşkünlüyünə qapılırlar. Soydaşlarımın belə hallarda bütün müsəlmanların qanına və iliyinə işləmiş hər şeyi Allahın ümidinə buraxmaq, ondan mərhəmət və şəfqət gözləmək hissinin təsiri altına düşəcəklərindən əndişələnirəm".

Yaranmış qeyri-müəyyənliyə mümkün qədər tezliklə son qoymaq, öz haqlarını tələb edən Krım-tatar cameəsinə düzgün yol göstərmək üçün Mustafa Davidoviç növbəti türk-müsəlman qurultayının keçirilməsini zəruri sayır və bu məsələdə təşkilati məsələlərin ağırlığını öz üzərinə götürmüş Əlimərdan bəydən məsləhət almaq istəyirdi: "Qurultay haqqında son qərarınızı bildirin. Bəlkə də Finlandiyada toplaşmaq lazım gəldi. Mən künc-bucaqda gizlənməyin tərəfdarı deyiləm. Bir sıra narahatlıqlar, məsələn, yolun uzaqlığı və s. belə işdə maneəyə çevrilməməlidir".

Məktub Əlimərdan bəyin Vətənində – Azərbaycanda erməni fitnəkarlarının əli ilə körüklənən millətlərarası münaqişə ilə bağlı narahatlığı ifadəsi ilə başa çatırdı: "Qafqaza üz verən bu bədbəxtlik nədir? Doğrudanmı nə yerdə, nə də göydə ədalət deyilən bir şey yoxdur? Bu misli bərabəri görünməyən qəddarlığa, günahsız insanların qanının axıdılmasına son qoymaq mümkün deyilmi?".

Qaldırılan məsələlərin vacibliyi və təxirəsalınmazlığı Mustafa Davidoviçi ertəsi gün – iyulun 25-də Əlimərdan bəyə yeni məktub yazmağa vadar etmişdi. Bu dəfə o, türk qurultayı keçirilməsi üçün rəsmi müraciət variantına üstünlük verir və Dövlət Dumasının üzvü kimi azərbaycanlı həmkarını bu məsələdə daha prinsipial mövqe tutmağa çağırırdı. Yalnız hökumət tərəfindən icazə verilmədiyi təqdirdə qurultayın məxfi şəkildə, yaxud Finlandiyada təşkilini məqsədəuyğun sayırdı.

Məlum olduğu kimi, Rusiya türklərinin birinci qurultayı İ. Qasprinski və Ə. Topçubaşovun sədrliyi altında 1905-ci il avqustun 15-də yarımleqal vəziyyətdə, bir qrup adamın gəmi ilə Volqa səyahətinə çıxması adı altında "Qustav Struve" paroxodunda keçirilmişdi. Bunun kifayət qədər poetik olduğunu etiraf etməklə birlikdə məktub müəllifi mövcud şəraitin ciddiliyinin nəzərə alınmasını da zəruri sayırdı. Onun fikrincə, Stolıpinin hələlik liberalizm oyunu oynamağa üstünlük verdiyi bir vaxtda hər hansı "qırmızı" meylin nəzərə çarpmadığı müsəlman qurultayının təşkilinə icazə almaq mümkün idi. Əsas

məsələ formal razılığın əldə edilməsi idi; gündəliyi qurultayın gedişi zamanı genişləndirmək, yaxud dəyişdirmək mümkün idi.

Həmin dövrdə İsmayıl bəyin müalicədə olduğunu nəzərə alsaq, Davidoviçin məktublarının onların hər ikisinin adından yazıldığını güman etmək mümkündür. Məktublar öz rolunu oynadı. Əlimərdan bəy dostlarının məsləhətinə qulaq asdı və qurultayla bağlı rəsmi icazə alınmasına nail oldu. Bunu yüksək qiymətləndirən İsmayıl bəy bütünlükdə mübarizəsinin leqal müstəvidə aparılması tərəfdarı idi və Ə. Topçubaşovu da yalnız belə olduğu təqdirdə xalqın dəstəyinin, kütləviliyin təmin ediləcəyinə inandırmağa çalışırdı.

Beləliklə, Rusiya türklərinin III qurultayı 1906-cı il avqustun 16-dan 21-nə qədər Nijni-Novqorod şəhərində keçirildi. Onun işində Rusiya imperiyasında türk-müsəlman əhalinin yaşadıqları ərazilərdən gəlmiş 900 nəfərdən çox nümayəndə iştirak edirdi. Mötəbər məclisi tərkibinə İsmayıl Qasprinski, Əlimərdan bəy Topçubaşov, Seyid Girey Alkin, Şah Heydər Sırtlanov və b. daxil olduğu rəyasət heyəti aparırdı. Miqyasına və gündəliyə çıxarılan məsələlərin mahiyyətinə görə bu qurultay Birinci rus inqilabı dövründəki müsəlman siyasi hərəkatının zirvəsi sayıla bilərdi.

Qurultay Rusiya müsəlmanlarının ilk siyasi partiyasının – "İttifaki-müslim"in Ə. Topçubaşov tərəfindən yazılmış proqramını və nizamnaməsini qəbul etdi. 15 nəfərdən ibarət Mərkəzi Komitə seçildi. Əlimərdan bəy partiyanın sədri oldu. Mərkəzi Komitənin tərkibinə seçilənlərin 11 nəfərinin Volqaboyu tatarlarını təmsil etmələrinə baxmayaraq sədrlik postuna azərbaycanlı siyasi xadimin layiq bilinməsi onun Rusiya türkləri arasında həqiqətən də böyük nüfuz sahibi olduğunu göstərirdi.

Stolıpin irticasının tüğyan etdiyi, Rusiya türklərinin başlatdıqları fəaliyyətin təhlükə altına düşdüyü dövrdə İsmayıl bəy ən çox Ə. Topçubaşova, onun ağlına, təcrübəsinə, imperiya paytaxtındakı əlaqələrinə güvənirdi. 1908-ci il aprelin 11-də mübarizənin gələcək taleyi ilə bağlı fikirlərini onunla bölüşərək yazırdı: "Əzizim Mərdan, əzablar içərisində nail olduğumuz işlərin vəziyyəti mənə yaxşı məlumdur, odur ki, soruşuram: sonra nə olacaq? Nə etməliyik? İlk növbədə sən Peterburqda qalmalısan, inanıram ki, əyalətlərdə təşkilati işlər başlayacaq və o, rus tarixinin xaotik dövründən, ümumrusiya partlayışından (Birinci rus inqilabı nəzərdə tutulur – V.Q.) daha ciddi xarakter alacaq. Aradan keçən üç il xalqı xeyli tərbiyələndirib. Psixoloji dönüş baş verib, sadə camaatın və ziyalıların fikri daha ciddi xarakter alıb".

Belə şəraitdə hadisələrin episentrində, siyasi qərarlar qəbul edildiyi yerdə şöhrətə, rəyasətə can atanların deyil, həqiqi milli liderin olması zəruri idi. İ. Qasprinskinin nəzərində belə siyasi lider Ə. Topçubaşov idi. "Yaramazları və cahilləri çıxmaq şərti ilə sağlam düşüncəli insanların hamısı sənin Peterburqda qalmağının əhəmiyyətini yaxşı başa düşürlər. Ona görə də, nəyin bahasına olursa olsun o mühitə uyğunlaşmağı, orada baş çıxarmağı bacarmalısan. Sonra nə baş verməsindən asılı olmayaraq heç kim sənin biliyinə, təcrübənə, hisslərinə qarşı söz deyə bilməz, onların əhəmiyyətini azalda bilməz. Sən xalqa lazımsan, lazım olacaqsan, bunu heç vaxt yaddan çıxarma".

İ. Qasprinski təkcə Rusiyada deyil, beynəlxalq miqyasda görüləcək işlərdə də Əlimərdan bəyi özünün ən yaxın müttəfiqi və ideya silahdaşı sayırdı. 1907-ci ildə o, ümumdünya müsəlman qurultayı təşkil etmək fikrinə düşmüş, bu məqsədlə Osmanlı imperiyasında və Misirdə olmuşdu. 1908-ci il aprelin 11-də nəzərdə tutulan islam forumu ilə bağlı gördüyü işlər, keçirdiyi görüşlər haqqında Əlimərdan bəyə məlumat verərək yazırdı: "Müsəlman konqresini bu il toplamaq mümkün olmayacaq, çox güman ki, gələn 1909-cu ilin oktyabrında keçiriləcək. İş çox ehtiyatla aparılır, meydana çıxan təhlükələrdən yayınmaq üçün taktiki gedişlərə əl atılır". Konqresin işçi dilinin fransızca olması nəzərdə tutulduğundan İ. Qasprinski bu dili yaxşı bilən Əlimərdan bəyi də rəhbər heyətin sıralarında görürdü.

1909-cu ildə İran hökuməti ölkədə hüquqi islahatlar aparmaq, ədliyyə sistemini dövrün tələblərinə cavab verən şəkildə qurmaq üçün Ə. Topçubaşovu təkidlə Tehrana dəvət edirdi. Ona nazir postundan aşağı sayılmayan vəzifə və ideyalarını həyata keçirmək üçün geniş səlahiyyətlər vəd olunurdu. Seçim qarşısında qalan Əlimərdan bəy yenə də Bağçasaraydan məsləhət almaq qərarına gəlmişdi. İ. Qasprinski 14 mart 1910-cu il tarixli məktubunda açılan imkanları dəyərləndirərək yazırdı: "Tehranın layiqli adamlar axtarması məni sevindirir. Yəqin başa düşüblər ki, xilas yolu diplomatik dəftərxanalarda yox, insanlardadır. Əlbəttə, səni Tehranda görmək istərdim. Çünki orada hələlik bizdə mümkün olmayan fəaliyyət meydanı və vəzifələr meydana çıxıb. Orada görülməli işlər çoxdur və onlar bizə yad deyil. İstər faydalı tərəflərini, istərsə də əksini nəzərə alaraq dəvəti qəbul edib-etməmək sənin ixtiyarındadır. Bir tərəfdən şəxsi işlərini qaydaya salmaq, o biri tərəfdən isə onları yenə də yarımçıq qoymaq artıq xeyirxah ürəyinin qərarı olmalıdır. Lakin bir şeyi deyə bilərəm: İranda səni yüksək və tarixi vəzifələr gözləyir". Eyni tarixi vəzifələr daha kəskin və təxirəsalınmaz şəkildə doğma Vətəndə də qarşıda dayandığından Ə. Topçubaşov Qacarların dəvətindən boyun qaçırmağı üstün tutmuşdu.

Siyasi məsələlərdən sonra onların sadəcə İsmayıl bəyin bir neçə məktubuna əsaslanaraq fikir yürütdüyümüz yazışmalarında ikinci əsas yeri mətbuat mövzusu tuturdu. "Tərcüman" Krım və

Volqaboyu tatarları arasında Ə. Topçubaşovun adı ilə bağlı olan “Kaspi”, “Həyat” kimi nəşrlərin təbliğinə, yayılmasına diqqət yetirirdi. Eyni zamanda İsmayıl bəy “Tərcüman”ın planları, məndəricəsi, dövriliyi, materialların bir hissəsinin rus dilində verilməsi, siyasi istiqamətin qüvvətləndirilməsi, nəşriyyat fəaliyyətinin əlaqələndirilməsi və s. məsələlər barəsində azərbaycanlı dostu və həmkarı ilə məsləhətləşməyi də vacib sayırdı.

“Həyat” qəzetinin Azərbaycan mətbuatına qarşı təzyiq alətinə çevrilmiş Qafqaz Senzura Komitəsinin basqıları altında nəşrini dayandırmaq məcburiyyətində qalması İ. Qasprinskini diqqətindən yayınmamışdı. M.Ə. Sabirin “Əfsus, “Həyat” isə, məmat oldu, qapandı!” – deyə yas tutduğu bu hadisəyə azərbaycanlı həmkarlarından az kədərlənməmişdi. Ə. Topçubaşova ünvanladığı 11 sentyabr 1906-cı il tarixli məktubda (“Həyat”ın son sayı sentyabrın 3-də çıxmışdı – V.Q.) “Əzizim Mərdan, “Həyat” üçün çox da qəmlənmə, işimiz onsuz da boğazdan olacaq” –deyə qələm dostunu sakitləşdirirdi. 24 sentyabr tarixli məktubda isə yenidən bu məsələyə qayıdaraq postskriptum qeydində yazırdı: “İki kəlmə “Həyat” haqqında. Onun bağlanmasından kədərləndiyini hiss edirəm. Sənin çox vaxt orada olmamağın, iş bacaran adamların çatışmaması nəticədə Hacının (qəzeti maliyyələşdirən H.Z. Tağıyev nəzərdə tutulur – V.Q.) yaxasını kənara çəkməsinə səbəb oldu. “Elansız qəzet” və “müsəlmanlar üçün qəzet”lə bağlı təcrübəndən ibrət götürməlisən. Burada sənin də üzərinə məsuliyyət düşür – çünki hələlik məhdud olan bir mühit üçün məsələləri geniş şəkildə qoymuşdun. Abunədən qazandığın pullar müəlliflərin mükafatlandırılmasına gedirdi. Bəs kağız, poçt, mürəttib xərcləri?” Digər təsadüflərdə olduğu kimi, yenə də düşünməyə tam əsas var ki, bu qeydlər Əlimərdan bəyin mətni əlimizdə olmayan məktubuna cavab səciyyəsi daşıyır.

H. Zərdabi, İ. Qasprinski və Ə. Topçubaşovun 1907-ci ildə Bakıda çəkilmiş məşhur foto-şəkli var. Həyatının son günlərini yaşamaqda olan üzgün, kədərli Həsən bəy ortada oturub. Qasprinski sağında, məsləkdaşı və kürəkəni Əlimərdan bəy isə solunda qərar tutublar. Estafeti sıra ilə biri digərinə ötürən üç nəsil, Rusiya imperiyasında türklərin milli hüquqları uğrunda mübarizənin üç fədaisi bir aradadır.

Hər şeyi Zərdabi başlamışdı. Rusiyada ilk türk qəzetini – “Əkinçi”ni çıxarmış, ilk teatr tamaşasının, ilk qız məktəbinin təşkilatçısı olmuş, ilk dəfə Azərbaycan türklərinin milli iradəsinin ifadəçisi kimi çıxış etmişdi. “Su damcısının da mürur ilə daşı dələcəyinə” inandığından dayanmadan, təkbaşına da olsa, çalışmışdı. Sonda səyləri nəticəsiz qalmamışdı. Böyük “Əkinçi”nin səpdiyi toxumlar cücərmişdi. Səsinə Krımdan İsmayıl Qasprinski səs vermişdi. “Əkinçi” “Tərcüman”ı yetirmişdi.

Uzaq perspektivdə dünya müsəlmanlarını bir araya gətirmək istəyən Qasprinski bu fantastik niyyəti ilə bir sırada həm də türk birliyi ideyasının beşiyi başında dayanmışdı. Ortaq dil, türkün tarixi və mənəvi dəyərlərinə birgə sahiblik şüuru formalaşdırmağa çalışmışdı. “Dildə, fikirdə, əməldə birlik” – şüarı ilə nədənsə slavyanofillikdən fərqli olaraq daim mənfi çalarla xatırladılan panturkizm ideya-siyasi cərəyanının qurucularından biri kimi tanınmışdı.

Rusiya imperiyasındakı türk-müsəlman xalqların milli-azadlıq mübarizəsi epoxasına qədəm qoyduğu dövrdə estafeti ondan Əlimərdan bəy Topçubaşov almışdı. XX əsrin ilk iyirmi ilində həqiqətən titanik fəaliyyət göstərmişdi. Maarifçilik hərəkatının siyasi müstəviyə keçirilməsinə nail olmuşdu. Tale Ə. Topçubaşova sələflərindən böyük sevinc və böyük acı bəxş etmişdi – milli dövlət qurucuları sırasında yer almış, onun mövcudluğunun ehtişamını və süqutunun faciəsini yaşamışdı. Amma həyatının son gününə qədər mübarizədən çəkinməmişdi.

**Vilayət Quliyev**